Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 55 (22.966)

28 mart 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Rəsmi xronika

Martın 27-də Bakının Nizami rayonu ərazisində Bona Dea Beynəlxalq Hospitalının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma bu tibb müəssisəsi barədə məlumat verilib.

Azərbaycan Prezidenti hospitalın rəmzi açılışını bildirən lenti kəsib.

Bona Dea Beynəlxalq Hospitalında yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısı və birinci xanım tibb ocağının kollektivi ilə görüşüblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hospitalın təcili tibbi yardım şöbəsi ilə də tanış olublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 26 mart tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında milli təhlükəsizliyin təmin edilməsində, xarici xüsusi xidmət orqanlarının kəşfiyyat-pozuculuq fəaliyyətinin qarşısının alınmasında, beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin hərbi qulluqçuları da vardır.

Məmmədquliyev Əli Şüceyib oğlu – mayor

"Vətən uğrunda" medalı ilə,

Paşayev Qənimət Əliheydər oğlu – mayor
Hacıyev Ramil Kamil oğlu – mayor

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

Naxçıvanda Novruz iməciliyi keçirilib

Təbiətin oyanması Novruzun gəlişi ilə başlayır. Yeni günün, yeni nizamın başlanğıcı olan Novruzun min illərdir qorunub-yaşadılan ənənələrindən biri də bayram günlərində yaz-tarla işlərinin görülməsi, təsərrüfatlarda səliqə-sahman yaradılmasıdır. Təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu adətlər muxtar respublikada bu gün də yaşadılır. Novruz bayramı münasibətilə iməciliklər keçirilir, meyvə bağları və yaşıllıqlar salınır.

Martın 24-də Naxçıvan Muxtar Respublikasında Novruz iməciliyi keçirilmiş, Naxçıvan şəhərində və rayon mərkəzlərində "Gənclər bağı" salınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin və Naxçıvan Şəhər İcra Hakimiyyətinin kollektivləri Naxçıvan-Şərur-Sədərək magistral avtomobil yolunun kənarında keçirilən iməcilikdə iştirak etmişlər. İməcilik iştirakçıları 2 hektar ərazidə 1500 meyvə tingi əkmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir. Ali Məclisin Sədri meyvə bağlarına və yaşıllıq zolaqlarına düzgün aqrotexniki qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti

"Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxs yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsin Nizamnaməsi təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin Sədri **Vasif TALIBOV**

Naxçıvan şəhəri, 27 mart 2018-ci il

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 27 mart tarixli Fərmanı ilə təsdiq edilmişdir

"Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" publik hüquqi şəxsin NİZAMNAMƏSİ

1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu (bundan sonra - Fond) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əsasında yaradılmış, muxtar respublikada gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılmasını təmin edən publik hüquqi şəxsdir.

1.2. Fond öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, bu Nizamnaməni, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları rəhbər tutur.

1.3. Fond öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və muxtar respublikada qeydiyyatdan keçmiş qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Fond ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur. Fond bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün qanunvericiliklə qadağan olunmayan digər fəaliyyətlə məşğul ola bilər.

1.5. Fondun müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Fondun əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır, o, məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edir.

1.7. Fond Naxçıvan şəhərində yerləşir.

2. Fondun fəaliyyətinin əsas məqsədi və istiqamətləri

2.1. Fondun fəaliyyətinin əsas məqsədi muxtar respublikada gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş ictimai və sosial əhəmiyyətli layihə və proqramları (bundan sonra - layihə) qrant şəklində məqsədli maliyyələşdirməkdən, həmin sahədə konfrans, seminar, festival, olimpiada və digər tədbirlərin təşkilindən ibarətdir.

2.2. Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.2.1. gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.2.2. gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

2.2.3. gənclərin, gənclər təşkilatlarının, eləcə də gənclər siyasətinin həyata keçirilməsində iştirak edən dövlət və yerli özünüidarəetmə orqanlarının elmi-tətbiqi, sosial əhəmiyyətli və idarəetmə sahəsi ilə bağlı innovativ ideyalarını dəstəkləmək;

2.2.4. gənclərin muxtar respublikanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında yaxından iştirakını təmin etmək, onların təşəbbüskarlığının stimullaşdırılması və artırılması istiqamətində tədbirlər görmək.

3. Fondun vəzifələri və hüquqları

3.1. Fond, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edir;

3.1.2. bu Nizamnamə ilə müəyyən edilmiş məqsədlərə uyğun olaraq, gənclər siyasəti sahəsində layihələrin həyata keçirilməsini və qrant maliyyələşdirilməsini təşkil edir;

3.1.3. layihələrin həyata keçirilməsi üçün Fondun vəsaitinin xərclənməsi istiqamətlərini müəyyən edir;

3.1.4. qanunvericiliklə müəyyən edilmiş qaydada layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsini təşkil edir və onların nəticələrini açıqlayır;

3.1.5. Fondun vəsaitləri hesabına maliyyələşdirilən layihələrin qanunvericiliyə uyğun olaraq ekspertizadan keçirilməsini təşkil edir;

3.1.6. gənclər siyasəti sahəsində dövlət proqramlarından irəli gələn layihələrin maliyyələşdirilməsinə üstünlük verir;

Ardı 2-ci səhifədə

3.1.7. gənclərin inkişafını təmin edən proqramların işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak edir;

3.1.8. aztəminatlı ailələrdən olub təhsil alan gənclərə təhsil müddətində təhsil müəssisəsinin yataqxanasında yer ayrılması üçün Fondun vəsaiti hesabına, bu Nizamnaməyə uyğun olaraq, maliyyə dəstəyi göstərir;

3.1.9. ixtisas və təhsil proqramları üzrə muxtar respublikanın ehtiyacları nəzərə alınmaqla, Fondun vəsaiti hesabına gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil prosesini, eləcə də təcrübə proqramlarında iştirakını bu Nizamnaməyə uyğun olaraq maliyyələşdirir;

3.1.10. Fonda ayrılan büdcə vəsaitindən, qrantlardan və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

3.1.11. Fondun ayırdığı vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarət edir, həmin vəsaitdən təyinatı üzrə istifadə edilmədikdə, maliyyələşdirmənin dayandırılması və verilən vəsaitin qaytarılması üçün tədbirlər görür;

3.1.12. dövlət orqanları, beynəlxalq təşkilatlar, hüquqi və fiziki şəxslər tərəfindən maliyyələşdirilən məqsədli proqram və layihələrin həyata keçirilməsində iştirak edir;

3.1.13. istedadlı və fəal gənclərin mükafatlandırılmasını təmin edir;

3.1.14. yaradıcı gənclərin teatr, kino, memarlıq, dizayn, müasir incəsənət sahəsində layihələrini dəstəkləyir;

3.1.15. kadr hazırlığını stimullaşdırır, istedadlı gənclərin və gənc alimlərin məlumat bankını yaradır;

3.1.16. gənclər təşkilatlarının maddi-texniki inkişafı yolu ilə vətəndaş cəmiyyətini və ictimai təşəbbüskarlığı dəstəkləyir;

3.1.17. gənclərin internet media sahəsində inkişafını dəstəkləyir;

3.1.18. animasiya və bədii filmlər vasitəsilə gənclərin Azərbaycan xalqının dilinə, adət və ənənələrinə, mənəvi dəyərlərinə, dövlət rəmzlərinə hörmət, azərbaycançılıq, vətənpərvərlik ruhunda tərbiyəsini gücləndirmək üçün tədbirlər görür;

3.1.19. gənclərin ekoloji maarifləndirilməsi məqsədilə onlar arasında müxtəlif tədbirlər, o cümlədən təlimlər və tətbiqi layihələr həyata keçirir;

3.1.20. gənclərin, o cümlədən əcnəbi gənclərin Azərbaycan və Naxçıvanın tarixinə və mədəniyyətinə dair tədqiqat işlərini dəstəkləyir;

3.1.21. Azərbaycanın və Naxçıvanın təqdimatına və təbliğinə yönəldilmiş layihələri dəstəkləyir;

3.1.22. gənclərin vəziyyətinin öyrənilməsi, müvafiq statistik məlumatların toplanması istiqamətində iş aparır;

3.1.23. gənclərin təhsili, sağlamlığı, peşəyönümü, məşğulluğu, inkişafı, asudə vaxtının səmərəli təşkili üçün zəruri olan hüquqi, iqtisadi və digər məlumatların toplanması və yayılması üzrə layihələrin həyata keçirilməsinə kömək edir;

3.1.24. gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı infrastrukturun modernləşdirilməsinə və gücləndirilməsinə yardım göstərir;

3.1.25. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin edir;

3.1.26. Fondun informasiya təminatını və onun təhlükəsizliyini təşkil edir;

3.1.27. dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

3.1.28. Fondun strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər görür;

3.1.29. Fondun fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə baxır;

3.1.30. qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri yerinə yetirir.

3.2. Fond öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları həyata keçirir:

3.2.1. gənclər siyasəti sahəsində beynəlxalq təcrübəni öyrənir, təcrübə və informasiya mübadiləsi aparır;

3.2.2. dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə gənclər siyasəti sahəsində zəruri məlumatlar (sənədlər) barədə sorğu verir və onlardan məlumatlar (sənədlər) alır;

3.2.3. Fonda maliyyə ehtiyatlarının cəlb olunması üçün tədbirlər görür;

3.2.4. gənclər siyasəti sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak edir;

3.2.5. istifadəsində olan əmlaka münasibətdə qanunla nəzərdə tutulmuş hüquqları həyata keçirir;

3.2.6. Fondun balansında olan dövlət əmlakını qanunvericiliyə uyğun olaraq icarəyə verir və ya ondan istifadə edir;

3.2.7. qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirir.

4. Fondun idarə olunması

4.1. Fondun cari fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən İcraçı direktor rəhbərlik edir. İcraçı direktor Fonda həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə cavabdehdir.

4.2. İcraçı direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.2.1. Fondun fəaliyyətini təşkil edir və Fondu təmsil edir;

4.2.2. təsisçinin səlahiyyətlərini həyata keçirmək üçün müvafiq olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təkliflər verir və sənədlər təqdim edir;

4.2.3. Fondun fəaliyyətinə dair illik hesabatı hazırlayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim edir;

4.2.4. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Fondun Aparatının strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.2.5. Fondun əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasını təmin edir;

4.2.6. Fondun fəaliyyət istiqamətləri üzrə dövlət və kommersiya sirrinin, habelə məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.2.7. Fondun işçilərinin peşəkarlıq səviyyəsinin artırılmasını, vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.2.8. icrası məcburi olan sərəncam və əmrlər verir;

4.2.9. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Fondun adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.2.10. Fondun işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə qərarlar qəbul edir;

4.2.11. Fondun vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.2.12. Fondun fəaliyyət istiqamətləri üzrə işçi qruplar yaradır;

4.2.13. Fondda kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.2.14. Fondda vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

5. Fondun əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Fondun əmlakı təsisçinin ona verdiyi əmlakdan, habelə dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə edilmiş gəlirdən, qrantlardan, cəlb olunan investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.2. Fond öz əmlakından yalnız bu Nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Fond balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

5.3. Fond, sərəncamında olan vəsaitdən bu Nizamnaməyə uyğun olaraq, Fondun xərclər smetası əsasında istifadə edir.

5.4. Maliyyə ilinin sonuna Fondun hesabında qalan vəsait növbəti ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilir.

6. Fondun fəaliyyətinə nəzarətin forması və əhatə dairəsi

6.1. Fondun fəaliyyətinə nəzarəti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

6.2. Fondun fəaliyyətinə dair illik hesabat Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim edilir.

7. Fondda uçot və hesabat

7.1. Fond qanunvericiliklə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

7.2. Fond qanunvericiliyə uyğun olaraq statistik uçot aparır, statistik hesabatları tərtib və təqdim edir.

8. Fondun ləğvi və yenidən təşkili

Fondun ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

Muxtar respublikamızın bütün rayonlarında “Gənclər bağı” salınıb

Məlum olduğu kimi, Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə bağlı hazırlanan tədbirlər planına əsasən həyata keçirilən layihələrdən biri də hər bölgədə yeni “Gənclər bağı”nın salınmasıdır. Ötən həftəsonu bu tədbir muxtar respublikanın bütün rayonlarında mütəşəkkilliklə həyata keçirilib.



Bu xeyirxah təşəbbüsə qoşulan 200 nəfərdən çox şərurlu gəncin iştirakı ilə rayonun Aşağı Daşarx kəndinin ərazisində 0,5 hektar sahədə “Gənclər bağı” salınıb. Bağda 225 müxtəlif meyvə tingi basdırılıb.

Babək rayonunun gəncləri də bu təşəbbüsə qoşulublar. Onlar rayon mərkəzindəki 1 hektarlıq ərazidə “Gənclər bağı” salıblar. Keçirilən iməcilikdə 150-yə yaxın gənc iştirak edib. Bağda 700 müxtəlif meyvə ağacı əkilib.

Ordubad rayonunda da gənclər Əylis düzü ərazisində iməciliyə çıxaraq təbiətin zənginləşdirilməsinə töhfələrini veriblər. Onlar bir hektar sahəyə yerli sortlardan ibarət 500 ədəd ərik ağacı əkərək “Gənclər bağı”salıblar.

Culfa rayonunda bayram əhval-ruhiyyəsi ilə keçirilən iməcilikdə yüzdən çox gənc Culfa Şəhər Su Anbarının ətrafında yaşıllaşdırma tədbirləri həyata keçirib, ərazidə “Gənclər bağı” salıblar. Həmin gün ərazidə 400 meyvə ağacı, 200-dən çox qızılgül kolu əkilib.

Naxçıvan-Sədərək magistral yolunun Kəngərli rayonunun Yurdçu kəndi ərazisindən keçən hissəsində, 1,3 hektar ərazidə də “Gənclər bağı” salınıb. Bunun üçün əvvəlcədən ərazidə meliorativ və aqrotexniki tədbirlər görülüb, torpaq əkinəyararlı hala gətirilib. İməcilik zamanı 950 ədəd yerli meyvə tingi əkilib, suvarma işləri aparılıb. Ekoloji aksiyada 200-ə yaxın gənc iştirak edib.

Mütəşəkkilliklə iməciliyə çıxan şahbuzlu gənclər də rayonun Şahbuzkənd ərazisində salınan “Gənclər bağı”nda 640 ərik və badam tingi əkiblər.

Ölkəmizin sərhəd bölgəsi olan Sədərək rayonunun gəncləri də ötən şənbə keçirilən iməcilikdə “Dəhnə” adlanan ərazidə “Gənclər bağı” salıblar. Bağda 350 ədəd meyvə tingi əkilib.



Qeyd edək ki, həmin gün muxtar respublika üzrə 1670 gəncin iştirakı ilə 7,3 hektar ərazidə 5210 ədəd meyvə ağacı əkilib. Şənbə iməciliyində muxtar respublikanın kənd yaşayış məntəqələrində təmizlik, səliqə-sahman işləri aparılıb. Gənclər bu işdə də fəallıq göstəriblər.

Həmin gənclərlə söhbət zamanı onlar bu tədbirin xüsusi əhəmiyyət daşıdığını bildirdilər. Şərur rayon sakini Sahil Əlizadə, Ordubad rayonundan Məhəmməd Quliyev, Culfadan Təbriz Hüzeynzadə, Kəngərli rayonundan Süleyman Süleymanov qeyd etdilər ki, ekoloji tarazlığın qorunması, bu məqsədlə təbiətin zənginləşdirilməsi, yaşıllıqlara qulluq göstərilməsi muxtar respublikamızın bütün bölgələrində ardıcıl olaraq davam etdirilir. Əsasən, iməciliklər yolu ilə həyata keçirilən bu tədbirlərdə muxtar respublika gəncləri həvəslə iştirak edirlər. Müsahiblərimiz bildirilər ki, bundan sonra da yeni meyvə bağlarının və yaşıllıq zolaqlarının salınmasında yaxından iştirak edəcək, onların qorunub saxlanılmasında və artırılmasında fəallıq göstərəcəklər.

Xəbərlər şöbəsi

Ailə təsərrüfatı

Qayğı və zəhmət firavan həyatın başlıca amilləridir

Culfa rayonunun Göydərə kənd sakini Zülfüqar Səfərovu uzun illərdir, sadə peşə adamı – sürücü kimi tanıyırdım. Sakittəbiətli bu insanın əsl torpaq və zəhmət adamı olduğunu isə təsadüfən öyrəndim. Belə ki, yaşadığı Göydərə kəndindən yazı hazırlamaq üçün həmin yaşayış məntəqəsində olarkən inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Canməmmədovdan ailə təsərrüfatları barədə soruşanda, birinci sürücü Zülfüqarın adını çəkdi.

Onun təsərrüfatı ilə tanış olmaq istədim. Söhbət əsnasında müxtəlif təsərrüfat sahələri ilə məşğul olan Zülfüqar Səfərov dedi:

– Dədə-babadan arıçılığa daha çox maraq göstərmişik. Hələ sovet dönəmindən bu sahə ilə məşğul oluruq. Düzdür, o vaxtlar arı ailələrinin sayını artıra bilmirdik. Ancaq indi dövlətimiz özü buna şərait yaradır ki, arıçılıq inkişaf etdirilsin, bazarlarımızda yerli məhsul bol olsun, belə məhsullar Naxçıvana başqa yerdən gətirilməsin. Onu da deyim ki, naxçıvanlılar həmişə keyfiyyətli məhsula üstünlük veriblər, elə indi də. Muxtar respublikamızın zəngin təbiəti də imkan verir ki, diyarımızda keyfiyyətli məhsullar yetişdirək. Odur ki, mən də, qohum-qonşularım da arıçılığı inkişaf etdiririk.

Zülfüqarın sözlərinə görə, o, Naxçıvanqalada keçirilən həm bal, həm də ailə təsərrüfatları festivallarında iştirak edib. Festivallara xeyli məhsul çıxarıb, yaxşı qazanc sahibi olub. Onu da deyim ki, Zülfüqar Səfərovun ailə fermer təsərrüfatı arıçılıqla yanaşı, maldarlıq, üzümçülük, meyvəçilik, taxılçılıq və balıqçılıqla da məşğul olur. Ötən il onun fermer təsərrüfatı 31 hektar sahədən taxıl tədarük edib. Burada bir məsələni də qeyd edək ki, Zülfüqarın taxılçılıq üçün istifadə etdiyi sahə dəmyədir. Belə sahələrdə becərmə aparılması çətindir və çox zəhmət, həmçinin vəsait tələb edir. Ancaq onun zəhməti hədər getməyib, yüksək məhsuldarlığa nail olub. 2017-ci ilin payızında isə 28 hektar sahədə taxıl əkib.

Deyir ki, ötən əsrin sonlarında başlanan hadisələrin insanları çörəklə sınağa çəkdiyini tez-tez xatırlayıram. Bu gün taxılçılığın inkişafına göstərilən qayğını, torpaq mülkiyyətçilərinin bu sahəyə gündən-günə artan marağını təbii hesab edirəm. Bir məsələni də deyim ki, sovet dönəmində dağlıq ərazilərdə taxıl əkməyin səmərə vermədiyi barədə səhv fikir formalaşdırmışdılar. Ancaq son illərdə belə ünvanlarda yaşayan, ömrünü zəhmətə bağlayan insanlar sübut etdilər ki, qayğı göstərilən yerdə hər şeyə nail olmaq mümkündür. Elə bu kiçik kəndin timsalında da bunu görmək olar. Baxmayaraq ki, taxıl əkini sahələrinin bir qismi dəmyə torpaqlardır, bununla belə, həmin sahələrdən yaxşı məhsul əldə edirik. Texnika var, əkinçinin əkib-becərmək üçün lazım olan ehtiyacları ödənilirsə, dəyirmanların, çörək-bişirmə fəaliyyəti ilə məşğul olan istehsal sahələrinin sayı getdikcə artırsa, qalır qollarını çırmalayıb işə başlayasan. Hər kiçik çatışmazlıqdan qorxmayasan. Onda qazanc özü səni tapacaq.

Məlumat üçün bildirək ki, Zülfüqar Səfərov 2500 kvadratmetr həyətyanı, 5500 kvadratmetr pay torpağı sahəsinin hər qarışından səmərəli istifadə edir. Həyətyanı torpağının 5 sotunda üzüm, 10 sotunda meyvə, 2 sotunda badam bağı salıb. 30-a yaxın cəviz ağacının yarısı artıq məhsul verir. Yazda torpağa daha 100 cəviz tingi basdıracaq. Tingləri özü yetişdirib və yüksək məhsuldarlığa malik sortlardır. Zülfüqar həyətində tikdirdiyi 150 tonluq hovuzda isə balıq yetişdirir. Heyvandarlıqla məşğul olur, toyuq-cücə saxlayır.

Artıq torpağı daimi iş yerinə çevirən, onun səxavətini görən insanlar bilirlər ki, çəkilən zəhmət hədər getmir, dövlət də zəhmətə qatlaşan insanları dəstəkləyir. İstehsal etdiyi məhsulların satılmasına qədər onlara köməklik göstərir. Yəni bu gün ələbaxımlılıq psixologiyasına artıq son qoyulub. Zəhmət çəkərsən, əvəzini görərsən, elə haqqında bəhs etdiyimiz Zülfüqar kimi.

Muxtar MƏMMƏDOV

Xalq artistinin yubileyi qeyd edilib

Martın 27-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoyun 60 illik yubileyi münasibətilə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov açaraq bildirib ki, qədim diyarımızda tanınmış sənət adamlarına yüksək diqqət və qayğı göstərilir. Muxtar respublikada sənət adamlarının yubileyləri yüksək səviyyədə qeyd edilir. Azərbaycan Respublikasının Xalq artisti Həsən Ağasoyun 60 illiyinin qeyd olunması da muxtar respublikada sənət adamlarına göstərilən diqqətin ən bariz ifadəsidir.

Vurğulanıb ki, Xalq artisti Həsən Ağasoy böyük yaradıcılıq yolu keçmiş, Naxçıvan teatrında 80-dən çox obraz yaratmış, tamaşaçı rəğbəti qazanmışdır. Həsən Ağasoy həm də gözəl bədii qiraət ustasıdır. O, gənc kadrların yetişməsində də mühüm xidmətlər göstərmişdir. Həsən Ağasoyun xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. O, 1984-cü ildə Naxçıvanın, 1989-cu ildə isə Azərbaycanın Əməkdar artisti, 1999-cu ildə Azərbaycan Respublikasının Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 2005, 2010-cu illərdə Azərbaycan Respublikası Prezidentinin mükafatçısı olmuş, 2008-ci ildə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.

Yubilyara Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təbriki çatdırılmış və hədiyyə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova Xalq artisti Həsən Ağasoyun keçdiyi həyat yolundan və səhnə fəaliyyətindən söhbət açıb. Qeyd edilib ki, Həsən Ağasoy 1958-ci il mart ayının 27-də Culfa rayonunun Gülüstan kəndində anadan olub və ilk təhsilini bu kənddə alıb. Uşaqlıq illərindən teatr sənətinə olan vurğunluğu onu 1975-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Dram və kino aktyorluğu ixtisasına gətirib. Həsən Ağasoy 1979-cu ildə uğurla təhsilini başa vuraraq təyinatla Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında əmək fəaliyyətinə başlayıb. Elə ilk illərdən rejissorların diqqətini səlis diksiyası və aktyor bacarığı ilə cəlb edən aktyor bir-birinin ardınca maraqlı səhnə obrazları yaratmağa başlayıb.

Bildirilib ki, Xalq artisti Həsən Ağasoy sənətə gəldiyi ilk gündən Naxçıvan televiziyası ilə sıx əməkdaşlıq edərək bir çox teletamaşalarda rol almış, televiziya verilişlərində və müxtəlif dövlət tədbirlərində yaxından iştirak etmişdir.

Tədbirdə Xalq artistinin sənət dostları – Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Xalq artisti Kamran Quliyev, Naxçıvan Dövlət Uşaq Teatrının direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov, Məhəmmədtağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Şirzad Abutalıbov, Xalq artisti Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artisti Yusif Allahverdiyev, Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı, Xalq rəssamı Hüseynqulu Əliyev, aktyor Zakir Fətəliyev, gənc aktyorlar Nurbəniz Niftəliyeva və Səyyad Məmmədov çıxış edərək yubilyar haqqında ürək sözlərini bildiriblər.

Sonda Xalq artisti Həsən Ağasoy çıxış edərək yaradıcılığına yüksək qiymət verildiyi üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını və səhnə sənətimizin inkişafı üçün bundan sonra da fədakarlıqla çalışacağını bildirib.

Əli RZAYEV

Naxçıvanla tanışlıq tur-aksiya iştirakçılarında böyük maraq doğurub

Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın Naxçıvandan olan iştirakçıları martın 26-da Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola düşüblər. Naxçıvanda keçirilən sınaq imtahanlarında yüksək nəticə əldə edən 160 şagird 20 bələdçi-müəllimin müşayiəti ilə tur-aksiya çərçivəsində Bakı şəhərindəki əhəmiyyətli mədəni-tarixi yerlərlə tanış olacaqdır.

Martın 26-da "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərinin Nərimanov, Nizami, Pirallahı, Suraxanı, Sabunçu və Xəzər rayonlarından olan 162 məktəbli 18 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəlib.

Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Şagirdlər Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Məminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olub, tarixi abidələr haqqında ətraflı məlumat alıblar.

Tur-aksiya iştirakçıları regionun nüfuzlu ali təhsil ocaqlarından biri olan "Naxçıvan" Universitetinə də ekskursiya ediblər.

* * *

Tur-aksiyanın ikinci günü – martın 27-də Bakı məktəbliləri muxtar respublikanın Ordubad və Culfa rayonlarının ərazilərində yerləşən tarixi abidələr və mədəniyyət müəssisələri ilə tanış olublar.

Şagirdlər əvvəlcə Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbə gəliblər. Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi "Qeysəriyyə" tarixi binasına gələn məktəblilərə buradakı eksponatlar barədə məlumat verilib. Görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin, böyük yazıçı Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin Ordubaddakı ev-muzeyləri ilə tanışlıq paytaxt məktəblilərində böyük maraq doğurub.

Culfa rayonuna ekskursiya zamanı məktəblilər Gülüstan türbəsinə gəliblər. Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 7 oktyabr tarixli Sərəncamına əsasən rayon ərazisində yerləşən dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunub.

Məktəblilərin səfər etdikləri məkanlardan biri də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən bərpa edilən "Əlincəqala" tarixi abidəsi və "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi olub. Diqqətə çatdırılıb ki, "Əlincəqala" tarixi abidəsinin bərpa olunması xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və bütün dünyada tanıdılması baxımından mühüm əhəmiyyət daşıyır.

Daha sonra "Duzdağ" otelində tur-aksiya iştirakçıları üçün Naxçıvan Dövlət Filarmoniyası kamera orkestrinin konserti olub.

* * *

"Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvan Muxtar Respublikasına gələn Bakı şəhər məktəbliləri ilə həmsöhbət olduq.

Sabunçu rayon 67 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Aytən Kələşova: – Artıq iki gündür ki, mən və digər məktəbli yoldaşlarım ölkəmizin bu əsrarəngiz guşəsinin qonağıyıq. Naxçıvan şəhərinin, Ordubad və Culfa rayonlarının gəzməli-görməli yerləri, mədəniyyət və təhsil müəssisələri ilə tanış olduq, tarixi və təbiət abidələrini yaxından gördük. Buraya gəldikdən sonra Naxçıvanın, həqiqətən də, gözəlliklər diyarı olduğunun əyani şahidi oldum. Onu da gördüm ki, burada bizi qarşılayan, qayğımıza qalan insanlar mehriban, qonaqpərvər və səmimidirlər. Bu, məni və yoldaşlarımı çox sevindirdi. Yaradılan imkanlara görə minnətdarlığımı bildirirəm.

Nərimanov rayon 47 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Mirağa Əsgərli: – Ölkəmizin qədim diyarı, dahilər yurdu Naxçıvanda olduğum qısa müddət ərzində buranın zəngin və çoxəsrlik tarixi, mədəniyyəti haqqında dolğun məlumat əldə etdim. Tur-aksiyanın birinci günü "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Məminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, sonra isə Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi, görkəmli pedaqoq Məhəmməd Tağı Sidqinin, Məmməd Səid Ordubadinin və akademik Yusif Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyləri ilə yaxından tanış olduq. Bu, digər şagird yoldaşlarım kimi məndə də böyük təəssürat yaratdı. Culfa rayonundakı möhtəşəm tikili, xalqımızın şücaət və qəhrəmanlıq rəmzi sayılan Əlincəqala isə bizi hədsiz dərəcədə heyrətləndirdi. Öyrəndim ki, çoxəsrlik tariximizi özündə yaşadan bu abidə yenidən bərpa olunaraq xalqa qaytarılıb. Düşünürəm ki, Əlincəqalanın bərpası tarixi keçmişimizə verilən önəmin ifadəsidir. Bu cür tur-aksiyaların təşkil edilməsi isə biz gənclərin tariximizlə, mədəniyyətimizlə daha yaxından tanış olması üçün böyük fürsətdir. Bu işdə əməyi keçən hər kəsə minnətdaram.

Xəzər rayon 125 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Nərmin Məmmədova: – "Ölkəmizi tanıyaq" devizi ilə keçiriləcək maarifləndirici tur-aksiyada iştirak edəcəyimi, bu aksiya çərçivəsində Naxçıvanda olacağımı eşidəndə çox sevinmişdim. Buraya gəldikdən sonra isə sevincim daha da artdı. Çünki ölkəmizin bu guşəsi haqda ətraflı məlumat əldə etdim, çoxlu gözəl yerlərdə oldum. Həqiqətən də, Naxçıvanın hər bir guşəsi çox maraqlıdır. Bizim üçün ayrılan rahat avtobuslarda saatlarla gəzsəm də, yorulmadım.

Bundan başqa, burada çox sayda həmyaşıdlarımla da tanış olmaq imkanı əldə etdim. Onlarla yaxşı vaxt keçirir, gördüklərimiz və öyrəndiklərimiz barədə danışırıq. Bir sözlə, Naxçıvanla tanışlığım mənim üçün çox faydalıdır. Sevinirəm ki, qayıdanda dostlarıma deyəcək çox sözlərim olacaq. Bizə bu fürsəti yaratdığına görə dövlətimizə minnətdarıq.

Suraxanı rayon 101 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Rüfət Zəkiyev: – Naxçıvanda olduğum iki gün ərzində buradakı səliqə-sahman, təmizlik çox xoşuma gəldi. Naxçıvan şəhəri çox gözəldir. Binalar göz oxşayır. İnsanlar səmimi və mehribandırlar.



Diqqətimi ən çox çəkən isə Naxçıvandakı ali təhsil müəssisələri oldu. Muxtar respublikada yüksək ali təhsil almaq üçün hər cür şərait var. Çox istərdim ki, məktəbi qurtarandan sonra ali təhsilimi məhz Naxçıvanda davam etdirim.

Ordubad şəhərindəki 3 nömrəli tam orta məktəbdə də olduq, müəllim və şagirdlərlə söhbət etdik. Məktəbin elektron lövhəli sinif otaqları, idman zalı, kompüter otaqları, zəngin kitabxanası ən müasir səviyyədədir. Sevinirəm ki, həmyaşıdlarım gözəl imkanlara malik məktəblərdə təhsil alırlar. Bu, biz gənc nəslin gələcəyinə verilən böyük önəmin ifadəsidir. Ümumiyyətlə, Naxçıvanda olduğum iki gün məndə yüksək əhval-ruhiyyə yaratdı, çox məlumatlar öyrəndim. Çəkilən zəhmətə görə minnətdaram.

Nail ƏSGƏROV
Tural AĞAYEV

Martın 27-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Beynəlxalq Teatr Günü münasibətilə tədbir keçirilib.

Beynəlxalq Teatr Gününə həsr olunmuş tədbir keçirilib

Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, 1961-ci il mart ayının 27-də YUNESKO-nun Beynəlxalq Teatr İnstitutunun Vyanada keçirilən IX konqresində qəbul edilən qərara əsasən hər il mart ayının 27-si Beynəlxalq Teatr Günü kimi qeyd edilir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli qayğı göstərilir. Son illər muxtar respublikada teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib, teatr binalarının hamısı yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilib.

Nazir diqqətə çatdırıb ki, müstəqillik illərində teatrlarımızın yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektivlər milli dəyərlərimizin peşəkar təbliğatçılarına çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı müxtəlif illərdə hazırladığı tamaşalarla balacaların qəlbinə yol tapmağı bacarıb. Həmçinin muxtar respublikanın şəhər və rayonlarında xalq teatrları da uğurla fəaliyyət göstərir. Xalq teatrlarının hazırladıqları onlarla tamaşa ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

Naxçıvan teatrları kollektivlərinin əməyi bu illər ərzində dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Səmərəli fəaliyyətinə görə bu sahədə çalışan sənət adamları Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, orden və medallara, Prezident təqaüdü və mükafatlarına layiq görülüblər.

Natəvan Qədimova çıxışının sonunda muxtar respublikamızda mədəniyyət və incəsənətə göstərilən böyük diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində belçikalı şair-dramaturq, Nobel mükafatı laureatı Moris Meterlinqin "Göy quş" əsərinin tamaşasına baxış olub.

Xəbərlər şöbəsi

Ümumtəhsil məktəblərinin hərbi rəhbərlərinin toplantısı olub

Gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edən ümumtəhsil məktəblərinin hərbi rəhbərləri ilə növbəti təlim toplantısı keçirilib.

Dərslər Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində təşkil edilib. Toplantı çərçivəsində hərbi-vətənpərvərlik mövzusunda film və videoçarxlar nümayiş olunub, kütləvi qırğın silahlarından mühafizə vasitələri və onlardan istifadə qaydaları əyani olaraq göstərilib. Fiziki hazırlıq dərsləri zamanı silahlı, silahsız və ikilikdə çalışmalar kompleksi, eləcə də sürət və güc çalışmaları yerinə yetirilib. Təlim mərkəzində hərbi rəhbərlərə müxtəlif atıcı silahların təyinatı, taktiki-texniki xüsusiyyətləri haqqında məlumat verilib. Həmçinin ilk tibbi yardımın göstərilməsi və yaralıların döyüş sahəsindən çıxarılması qaydaları da hərbi rəhbərlərin diqqətinə çatdırılıb. Hərbi rəhbərlər praktik atışları icra edib, əl qumbaralarından atış çalışmalarını yerinə yetiriblər.

Üçgünlük təlim toplantısı yekun tədbiri ilə başa çatıb. Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov çıxış edərək diqqətə çatdırıblar ki, hərbi rəhbərlər davranışları ilə, hərbi geyimə münasibətə görə şagirdlərdə ordumuz haqqında ilkin təəssüratlar yaradırlar. Buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və tam tədris bazası ilə təmin edilmiş ibtidai hərbi hazırlıq yeşikləri təqdim edilib.

Çıxışlar zamanı təlim toplantılarının əhəmiyyəti qeyd edilib, hərbi rəhbərlərin bilik, bacarıq və peşəkarlıqlarının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağı bildirilib. Həmçinin vurğulanıb ki, bu gün tam orta məktəblərimizdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilir. Ona görə də hər il yüzlərlə gənc Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edir.

Sonda bir qrup hərbi rəhbərə növbəti hərbi rütbələr təqdim edilib.

Nəriman NƏCƏFOV

Seçki marafonu

11 aprel – Azərbaycan Respublikası Prezidentinin seçkiləri günüdür

Prezident seçkiləri - 2018

Seçkilərdə Azərbaycan Respublikasının aktiv seçki hüququna malik hər bir vətəndaşı respublika ərazisində və ya seçki dairəsinin ərazisində öz təşəbbüsü, qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və seçkilər üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında müşahidə apara bilər.

Hörmətli seçicilər!

Müşahidə respublikanın bütün ərazisində, bir seçki dairəsinin ərazisində, habelə müvafiq seçki komissiyalarının iclaslarını xüsusi icazə əsasında müşahidə etməklə aparıla bilər.

Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparmaq niyyətində olan aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına bu barədə ərizə təqdim edə bilər. Hər bir ərizəyə dair qərar onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilməlidir.

Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

Mərkəzi Seçki Komissiyası tərəfindən müşahidənin keçirilməsinə icazə verilmədikdə, həmin vətəndaşın Mərkəzi Seçki Komissiyasının bu qərarından müvafiq apelyasiya instansiyası məhkəməsinə şikayət vermək hüququ vardır.

Müşahidənin aparılmasına icazə verildikdə, müşahidəçiyə Mərkəzi Seçki Komissiyası tərəfindən lövhəcik verilir.

Seçki dairəsinin ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək müvafiq dairə seçki komissiyasına təqdim edilə bilər. Hər bir ərizəyə dair qərarın qəbul edilmə müddəti ərizənin verildiyi tarixdən başlayaraq 2 gündən artıq ola bilməz. Müşahidənin aparılmasına rədd cavabı yalnız ərizədə göstərilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

Müşahidənin keçirilməsinə dairə seçki komissiyası tərəfindən icazə verilmədikdə, dairə seçki komissiyasının bu qərarından Mərkəzi Seçki Komissiyasına şikayət verilə bilər.

Müşahidənin aparılmasına icazə verildikdə, müvafiq dairə seçki komissiyası müşahidəçiyə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəcik verir.

Seçki Məcəlləsinin 36.6-cı maddəsinə əsasən qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və seçicilərin təşəbbüs qrupunun məntəqə seçki komissiyası işə başladığı andan səsvermənin nəticələri rəsmiləşdirilənədək məntəqə seçki komissiyasına bir müşahidəçi təyin etmək hüququ vardır. Həmin müşahidəçilər müvafiq dairə seçki komissiyasına onların müşahidəçi təyin edilməsi barədə qərarın surətinə 2 ədəd rəngli fotoşəkil əlavə edilmiş ərizə ilə müraciət edərək lövhəcik alırlar. Müraciətin təmin edilməsinə rədd cavabı yalnız təqdim edilən məlumatlar təsdiq olunmadıqda verilə bilər.

Səsvermə günündədək seçki komissiyasının iclaslarını müşahidə etmək hüququna yalnız Seçki Məcəlləsinin 40.13-cü maddəsi ilə müəyyən edilmiş qaydada həmin hüququn əldə edilməsi üçün Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək qeydiyyatdan keçməklə xüsusi icazə almış müşahidəçilər malikdir.

Mərkəzi Seçki Komissiyasının verdiyi lövhəciklərdə həmin hüquq göstərilməlidir. Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları hər biri ayrı-ayrılıqda hər seçki komissiyası üçün komissiyanın iclaslarını müşahidə etmək hüququna malik bir müşahidəçi təyin edə bilər. Mərkəzi Seçki Komissiyası onları, hər bir seçki komissiyasında 10 nəfərdən artıq olmamaqla, püşkatma yolu ilə təyin edir.

Müşahidənin aparılması aşağıdakı prinsiplərə əsaslanmalıdır:

• seçki prosesinə bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə təsir göstərilməməlidir;

• müşahidə edilən hərəkətlərə aid olan bütün hallar və faktlar nəzərə alınmalıdır;

• müşahidə açıq aparılmalıdır;

• müşahidənin yekunları faktlara əsaslanmalıdır.

Müşahidəçi müşahidəni aparan zaman yuxarıda sadalanan prinsiplərə hökmən əməl etməli, aşkar etdiyi faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir. Seçki prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədəmüvafiqliyi daim diqqətdə saxlanılmalıdır.

Seçkilərin digər iştirakçıları kimi müşahidəçilər də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:

- mətbuat azadlığına hörmət bəsləmək;
- öz peşə fəaliyyəti ilə məşğul olan kütləvi informasiya vasitələri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların seçki kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;
-seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamaq;
-seçkiqabağı təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;
-seçkiqabağı kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;
-seçkilərin azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;
-seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;
-səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;
-səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;
-seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;
-seçki komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;
-seçkilərin qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;
-hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;
-seçicilərə mükafat təqdim etməmək, onları cəza ilə hədələməmək;
-dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan Seçki Məcəlləsi ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;
-təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;
-təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;
-heç bir vəzifəli şəxsin namizədin dəstəklənməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.

Yerli və beynəlxalq müşahidəçilər eyni hüquqlara malikdirlər və eyni vəzifələr daşıyırlar.

Müşahidəçinin, o cümlədən beynəlxalq müşahidəçinin aşağıdakı hüquqları vardır:

- seçici siyahıları ilə tanış olmaq;
- səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;
- seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə etmək;
- səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək;
- seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;
- müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək;
- müşahidə aparmağı təmin edən şəraitdə və müəyyən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədi ilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq;
- səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;
- seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara daxil olmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq (müşahidəçinin tələbi ilə seçki komissiyası adı çəkilən sənədlərin surətlərini təsdiq etməlidir), səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;
- müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;
- seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək.

Müşahidəçiyə aşağıdakı hərəkətlər qadağan edilir:

- seçicilərə seçki bülletenləri vermək;
- seçiciyə necə səs verəcəyi və ya necə səs verdiyi haqqında sual vermək;
- seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;
- seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;
- seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;
- seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;
- seçicilər arasında təşviqat aparmaq;
- bu və ya digər namizədin, siyasi partiyanın, referenduma çıxarılan sualın dəstəklənməsinə yönəldilən və ya dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və ya çağırışlar etmək;
- müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;
- seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla).

Bu tələblərə riayət etməyən müşahidəçinin qeydiyyatı onu qeydə almış seçki komissiyasının müraciəti əsasında müvafiq məhkəmə tərəfindən ləğv edilə bilər.

Naxçıvan Muxtar Respublikası
Mərkəzi Seçki Komissiyası

İdmançılarımız ölkə birinciliyində üç medal qazanıblar

İsmayıllı rayonundakı Olimpiya-İdman Kompleksində yeniyetmə və gənclər arasında kikboksinq üzrə Azərbaycan birinciliyi keçirilib. Dörd gün davam edən ölkə birinciliyində Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının idmançıları uğura imza atıblar. Belə ki, beş idmançımızın mübarizə apardığı birincilikdə 3 medal əldə edilib.

Yeniyetmələr arasında 2002-ci il təvəllüdlülər – 57 kiloqram çəki dərəcəsində rinqə çıxan Fərman Rzayev, 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Yusif Quluzadə bürünc medal qazanıblar. Gənclər arasında isə Rauf Həsənov (1999-cu il təvəllüd) üçüncü olub. O, 60 kiloqram çəki dərəcəsində bu nailiyyətə imza atıb.

Hər üç idmançımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim edilib.

Film nümayiş etdirilib

31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində gənclərə vətənpərvərlik mövzusunda olan "Qarabağa doğru" filmi nümayiş etdirilib.

Film aprel döyüşlərində qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış kapitan Mühüd Orucovun, baş leytenant Elvin Namazovun və əsgər Orxan Əliyevin xatirələrinə həsr olunub. Film Qazax rayonunun Fərəhli, Yuxarı Salahlı və Aslanbəyli kəndlərində, eləcə də "N" hərbi hissədə və Daş Salahlı kəndi ərazisində yerləşən meşəlikdə çəkilib.

Ümumilikdə, filmə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları da daxil olmaqla, 410 gənc baxıb.

Film Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə nümayiş etdirilib.

Ceyhun MƏMMƏDOV

ŞƏRQqapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 239